

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 50 (21.460)

16 mart 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Türkiyə Respublikasına işgüzar səfərə gedib.

Prezident İlham Əliyevi qardaş ölkənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılayıblar.

Martın 15-də Ankarada Türkiyə Respublikası Prezidentinin Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olub.

Martın 15-də Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası keçirilib.

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası başa çatdıqdan sonra prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.



## Naxçıvanda sosial qayğıya ehtiyacı olanlara mənzillər təqdim olunmuşdur

Martın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 1 şəhid ailəsinə və 2 sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına yeni mənzillər təqdim edilmişdir.



Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək demişdir ki, muxtar respublikada şəhid ailələri və müharibə əlillərinin yaşayış səviyyəsi yaxşılaşdırılır, onlara lazımi sosial xidmət göstərilir. Bunun nəticəsidir ki, ötən il 10 nəfər müharibə əlili və şəhid ailəsi mənzillərlə, müvafiq kateqoriyalı sağlamlıq imkanları məhdud 16 nəfər minik avtomobili ilə təmin edilmişdir. Bununla yanaşı, 207 məhdud fiziki imkanlı şəxsə müxtəlif sanatoriya və pansionatlara göndərişlər, 390 nəfərə texniki bərpa vasitələri verilmiş, 660 nəfərin bərpa mərkəzlərində, 18 nəfərin isə xarici ölkələrdə müalicələri təşkil edilmişdir. Həmçinin muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin təhsili, əmək bazarına inteqrasiyası və yaradıcılıq potensiallarının üzə çıxarılması diqqət mərkəzində saxlanılır, bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni mənzillə təmin olunanları təbrik edərək demişdir: Mənzil hər bir insanın həyatında vacib amildir. Ailənin rahat yaşayışının təmin olunmasında mənzilin xüsusi yeri vardır. Bu gün xalqımız üçün əziz bayram günündə – ilaxır çərşənbədə vətən qarşısında xidməti borclarını layiqincə yerinə yetirən şəxslərə və onların ailələrinə yeni mənzillər təqdim edilir.

Ali Məclisin Sədri demişdir: Ölkəmiz qarşısında xidməti olan hər bir insanın əməyi yüksək qiymətləndirilir. Dövlətimiz tərəfindən şəhid ailələrinə və müharibə veteranlarına hərtərəfli şərait yaradılır, onlara təqaüdlər verilir, digər sahələrdə çalışanlar dövlət təltiflərinə layiq görülürlər. Bu işlər ona görə həyata keçirilir ki, ölkəmizdə ümummilli liderimiz Heydər Əliyevin siyasi xətti uğurla davam etdirilir. Ölkəmizin iqtisadi imkanları, mövcud sabitlik, dövlət-xalq və xalq-dövlət birliyi istənilən sosial tədbirlərin həyata keçirilməsinə imkan verir. Muxtar respublikada da sosial qayğıya ehtiyacı olan insanların rahat yaşayışı, sağlamlıqlarının bərpası və hərəkət imkanlarının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Ötən il dekabrın 24-də 4 şəhid ailəsinə və 2 sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına mənzil verilmişdi. Bu gün isə müvafiq kateqoriyadan olan 3 ailəyə yeni mənzillər təqdim olunur. Həyata keçirilən bu tədbirlər vətən qarşısında xidməti borclarını layiqincə yerinə yetirən şəxslərə göstərilən qayğıya olmaqla yanaşı, həm də digər insanlar üçün örnəkdir. Ona görə də müvafiq kateqoriyadan olan insanların ölkəmiz və xalqımız qarşısındakı xidmətləri bundan sonra da unudulmayacaq, onlar daim dövlətimizin himayəsi altında olacaqlar.

Ali Məclisin Sədri ailəsi mənzillə təmin olunan şəhidə rəhmət diləmiş, sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçılarına təşəkkür etmiş, onlara yeni mənzillərində firavan həyat arzulamışdır.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini təqdim etmişdir.

Mənzillə təmin olunan Məzahir Süleymanov və şəhid ailəsi Turanə Cəfərova minnətdarlıq edərək demişlər: Muxtar respublikada insanların həyat səviyyəsi günbəgün yaxşılaşır. Hər bir sakin bunu gündəlik həyatında hiss edir. Vətən qarşısında hər bir xidmət şərəflidir. Şəhid olmaq, Vətən yolunda sağlamlığını itirmək də, xalqımız üçün, ölkəmiz üçün çalışmaq da eyni qiymətə malikdir. Bu gün yeni mənzillərin təqdim olunması Vətənimizin azadlığı və ərazi bütövlüyünün qorunması zamanı sağlamlığını itirənlərin, şəhid ailələrinin böyük sevincinə səbəb olmuşdur. Çıxış edənlər göstərilən diqqətə görə müharibə əlilləri və şəhid ailələri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, qarşıdan gələn Novruz bayramı münasibətilə təbriklərini çatdırmışlar.

Şəhid ailəsi üçün verilən ikiotaqlı mənzil Şərur şəhərində, sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçılarına verilən iki və üçotaqlı mənzillər isə Naxçıvan şəhərində yerləşir. Mənzillərdə lazımi kommunal-məişət şəraiti yaradılmışdır. Yeni mənzillə təmin olunanlara xalça hədiyyə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Novruz bayramı münasibətilə tədbirlər keçirilib

Martın 15-də Novruz bayramı münasibətilə Şahbuz şəhərindəki Ahıllar evində tədbir keçirilib. Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək sakinləri Novruz bayramı münasibətilə təbrik ediblər.

Qeyd olunub ki, muxtar respublikada bütün sahələrdə müşahidə olunan dinamik inkişaf və tərəqqi xüsusi qayğıya ehtiyacı olan şəxslərin, o cümlədən ahılların və sağlamlıq imkanları məhdud şəxslərin davamlı olaraq sosial müdafiəsinin gücləndirilməsinə, cəmiyyətə inteqrasiyasına da imkanlar açıb. Bu kateqoriyadan olan şəxslərə müxtəlif növ sosial xidmətlər göstərilir, onların müvəqqəti məşğulluqlarının təmin edilməsi məqsədilə sosialyönümlü layihələr həyata keçirilir. Eyni zamanda tənha yaşayan ahıl və məhdud fiziki imkanlı şəxslər mütəmadi olaraq evlərində ziyarət edilir, onların sosial problemləri yerindəcə həll olunur. Ahıllar arasında yaradıcılıq müsabiqələrinin, əl işlərindən ibarət sərgilərin, bayram və əlamətdar günlərdə görüşlərin keçirilməsi daim diqqət mərkəzində saxlanılır.

Bildirilib ki, Ahıllar evi sakinlərinin rahat yaşamaları üçün hərtərəfli şərait yaradılıb. Onlara mütəmadi olaraq tibbi və sosial reabilitasiya xidmətləri göstərilir. Novruz bayramı ərəfəsində Ahıllar evində tədbirin keçirilməsi bu qəbildən olan şəxslərə diqqət və qayğının daha bir ifadəsidir.

Tədbirin bədii hissəsində Şahbuz Rayon Mədəniyyət Evinin “Batabat” instrumental ansamblı konsert proqramı ilə çıxış edib.

Sonda sakinlərə bayram hədiyyələri təqdim olunub.

Ahıllar onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Bayram münasibətilə həmin gün Naxçıvan şəhərində və muxtar respublikanın rayon mərkəzlərində sağlamlıq imkanları məhdud insanlarla görüşlər keçirilib.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirlərdə şəhər və rayon icra hakimiyyətlərinin nümayəndələri çıxış edərək məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlərdən danışıblar.

Bayram tədbirlərində, ümumilikdə, məhdud fiziki imkanlı 1000 şəxsə bayram sovqatı təqdim edilib, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən tədbirlərdə iştirak edə bilməyən şəxslərə isə evlərində baş çəkilib, onlara bayram hədiyyəsi verilib.

Ordubad rayonunda keçirilən bayram tədbirində isə “İnam” musiqi qrupu tədbir iştirakçıları qarşısında konsert proqramı ilə çıxış edib.

Tədbir iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

***Muxtar respublikada rabitə sisteminin müasir standartlara uyğunlaşdırılması diqqət mərkəzində saxlanılır. Yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli rabitə, internet, poçt və teleradio xidmətlərinin göstərilməsi 2016-cı ilin fevral ayında da davam etdirilmişdir. Belə ki, ötən ay 5 baza stansiyası qurulmuş və 4-cü nəsil “Naxtel” baza stansiyalarının sayı 90-a çatdırılmışdır.***

## Muxtar respublikada müasir və dayanıqlı rabitə sistemi yaradılmışdır

Yaşayış məntəqələrində sabit telefon və internet xidmətinin yaxşılaşdırılması istiqamətində də işlər davam etdirilmişdir. Artan tələbata uyğun olaraq, Babək rayonunun Nehrəm kəndində 384, Xal-xal kəndində 176, Ordubad rayonunun Kotam kəndində isə 96 nömrə tutumlu yeni nəsil avtomat telefon stansiyaları quraşdırılmışdır. Ümumiyyətlə, ötən ay 57-si simsiz olmaqla, 248 yeni telefon nömrəsi istismara verilmişdir. Həmçinin bu dövrdə 1350 metr fiber-optik xətt çəkilmişdir. Ötən ay internet istifadəçilərinin də sayı artmış, 545 abunəçi internetlə təmin olunmuşdur.

Muxtar respublikanın poçt xidməti də günün tələblərinə uyğun qurulur, elektron xidmətlər insanların rahatlığını təmin edir. Fevral ayında Şərur rayonunun Oğlanqala və Şahbuz rayonunun Daylaqlı kəndlərində istifadəyə verilən rabitə evlərində lazımi avadanlıqlar quraşdırılaraq müasir poçt xidməti yaradılmışdır. “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətinin kompüter şəbəkəsinin Mərkəzi Bankın Hökumət Ödəniş Portalına qoşulması prosesi başa çatdırılmışdır. Sistemə qoşulmuş bank-maliyyə və digər qurumların ödənişlərinin poçt məntəqələrində yığılması təmin edilmişdir. Bu dövrdə kadr hazırlığı da diqqətdə saxlanılmış, kompüter kurslarına 4 ümumi və 22 fərdi qrupun tərkibində 51 dinləyici cəlb olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

*Ötən əsrin 20-ci illərində Rusiyada siyasi hakimiyyət hələ möhkəmlənməmişdi. Ölkədə vətəndaş müharibəsi və xarici hərbi müdaxilə baş verir, imperialist dövlətləri bolşevik hakimiyyətinə qarşı müxtəlif təxribatlar törədirdi. Bu fikirləri eyni ilə Türkiyəyə də aid etmək olar. Osmanlı imperiyası süqut etmiş, Mustafa Kamal Paşa Türkiyəni xilas etmək üçün mübarizəyə başlamışdı. Belə bir şəraitdə Rusiya-Türkiyə yaxınlaşması tarixi proseslərin nəticəsi olaraq ortaya çıxdı. Son nəticədə, bu dövlətlər arasında müəyyən müqavilələr imzalandı. Əslində, bir sıra dövlətlər Türkiyə-Rusiya yaxınlaşmasını istəmirdilər. Çünki Birinci Dünya müharibəsində qalib gəlmiş böyük dövlətlər bir tərəfdən Türkiyəni məğlub edib özlərindən asılı vəziyyətə salmaq, digər tərəfdən isə Rusiyada bolşevik hökumətini devirmək, Azərbaycanda hakimiyyətə gəlmiş bolşevik hökuməti ilə yaxınlaşmasına yol verməməyə çalışırdılar.*

# Moskva müqaviləsinin imzalanmasından 95 il ötür

Həmin dövrdə Azərbaycanda, eləcə də Naxçıvan diyarında da mürəkkəb və ziddiyyətli hadisələr baş verirdi. Azərbaycanın düşdüyü daxili, qarşılaşdığı beynəlxalq vəziyyət elə ağır idi ki, bir sıra hallarda Naxçıvan bölgəsinə lazımi səviyyədə kömək göstərə bilmirdi. Bundan istifadə edən erməni daşnakları siyasi və hərbi yolla Naxçıvanı ələ keçirmək uğrunda mübarizəyə başlamışdılar. Bir sıra kapitalist dövlətlərinin himayəsindən, yardım və dəstəyindən istifadə edən ermənilər Naxçıvan diyarına basqınlar edir, qırğınlar törədir, şəhər və kəndləri dağıdır, lakin yerli əhalinin inadlı mübarizəsi, qəhrəmanlığı sayəsində onlar öz məkrli niyyətlərinə nail ola bilmirdilər.

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra da, daşnakların təcavüzkar hərəkətləri nəticəsində Naxçıvan diyarında gərginlik hələ də davam edirdi. RSFSR hökumətinin daşnak hökuməti ilə danışıqlar vasitəsilə münaqişəni həll etmək cəhdi baş tutmadı. 1920-ci ilin iyulunda Naxçıvan, Culfa və Ordubad əhalisi Nəriman Nərimanova, Q.Orconikidzeyə məktubla müraciət etdi. Məktubda deyilirdi: *"Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur. Qızıl ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycana birləşdirməyi təmin etməyi təvəqqe edirik".*

XI Ordunun köməyi ilə 1920-ci il iyulun 28-də Naxçıvan diyarında Sovet hakimiyyəti quruldu və Naxçıvan SSR elan edildi, respublikanın ali hakimiyyət orqanı – Naxçıvan İnqilab Komitəsi yaradıldı. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsi Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova məktub göndərdi. Məktubda deyilirdi: *"Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi hesab etmişdir".*

Rusiya rəhbərlərinə gəldikdə isə onlar Türkiyə ilə diplomatik münasibətlər yaratmaq istəsələr də, Ermənistandan Türkiyəyə qarşı bir vasitə kimi də istifadə etməyə çalışırdılar. Ermənistan, Azərbaycan və Türkiyənin qarşılıqlı münasibətləri məsələlərinin həllində İ.Stalin Rusiyanın mənafelərindən çıxış edərək həmişə Ermənistanın mövqeyini müdafiə edirdi. O deyirdi: *"Əgər bilmək istəyirlərsə ki, Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, sovet hökuməti olanda vermək olar".* İ.Stalin bu çıxışından 21 gün sonra Ermənistanda Sovet hakimiyyəti quruldu. Bu, o demək idi ki, İ.Stalin və Rusiya rəhbərliyi də Zəngəzur və Naxçıvanı Ermənistana vermək istəyirdi. Ermənistan bolşeviklərin nəzarətinə keçən kimi Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. Bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi.

Məlum bəyanatdan sonra Naxçıvan bölgəsində daxili vəziyyət xeyli mürəkkəbləşmiş, onun üstündə mübahisə və münaqişələr səngiməkdənsə, xeyli kəskinləşmişdi. Naxçıvan məsələsi Rusiya-Ermənistan və Türkiyə-Ermənistan danışıqlarında mühüm yer tuturdu. Ermənistan Rusiya və Türkiyə arasında siyasi manevrlər edərək onların münasibətlərindən və yaranmış şəraitdən istifadə etməyə çalışırdı. Rusiyaya gəldikdə isə o, Türkiyə ilə yaxınlaşmaq xəttini yeritsə də, erməniləri də müdafiə edirdi. Ermənistan isə Naxçıvan və başqa ərazilərlə bağlı niyyətlərini həyata keçirmək üçün ən çox Rusiyaya ümid bəsləyirdi. Ermənistan 1920-ci il dekabrın 2-də həm Rusiya, həm də Türkiyə ilə müqavilə bağladı. RSFSR ilə Sovet Ermənistanı arasında bağlanan hərbi-siyasi sazişə görə keçmiş İrəvan quberniyasının Ermənistanın tərkibinə daxil olmasının sovet hökuməti tərəfindən mübahisəsiz tanınması qəbul edilirdi. Türkiyə ilə Ermənistan arasında bağlanan Gümrü (Aleksandropol) müqaviləsi Rusiya və onun təhriki ilə Ermənistan tərəfindən qəbul edilmədi. Lakin bununla belə, bu müqaviləyə görə, Naxçıvan bölgəsinin düşmən əlinə keçməməsi üçün "həmin ərazidə hələlik Türkiyənin himayəsində yerli hökumət yaradılması" qərara alınmışdır. Gümrü müqaviləsinin 2-ci maddəsində tərəflər Naxçıvan bölgəsi ilə bağlı razılığa gəlmişdilər ki, Ermənistan Kükü dağı, Həməsur dağı, Qurdqulaq kəndi, Saat dağı, Arpaçay evləri, Qəmərli dağı, Saray-Bulaq dağları, Ararat stansiyası, Araz çayı yaxınlığındakı Aşağı Qarasunun töküldüyü yerdən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) əraziyə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu ərazinin əhatə edəcəyi torpaqlara qarışmayacaq, indiki ərazidə hələlik Türkiyənin himayəsində yerli idarə yaradılacaqdır. Müqavilənin 12-ci maddəsinə əsasən, Türkiyə hökuməti Şərur, Naxçıvan, Şahtaxtı və Culfa yolu ilə tranzit işlərinin sərbəstliyinin təminatını öz üzərinə götürdü.

1920-ci il dekabrın 28-də Ermənistan SSR Hərbi İnqilab Komitəsi bəyanat ilə çıxış edərək Naxçıvan əhalisinə öz müqəddəratını azad surətdə təyin etmək hüququ verildiyini bildirdi. Lakin 1921-ci ilin əvvəllərindən başlayaraq yenə də Naxçıvana qarşı haqsız ərazi iddiaları irəli sürdü.

1920-ci ildə Türkiyə xalqı öz vətəninin müstəqilliyi uğrunda mübarizə aparırdı. Türkiyənin inqilabi hökuməti Sovet Rusiyası ilə dostluq əlaqələri yaratmışdı. 1920-ci il aprelin 26-da Türkiyə Böyük Millət Məclisi yardım üçün V.İ.Leninə müraciət etdi. Həmin ilin yayından başlayaraq Türkiyə hökuməti Rusiya ilə diplomatik münasibətlər qurmaq və iki ölkə arasında dostluq müqaviləsi imzalamaq üçün fəallığını artırdı və bunun üçün Bəkir Sami bəyin başçılığı ilə nümayəndə heyəti Moskvaya gəldi. Danışıqlar nəticəsində sovet-türk müqaviləsinin layihəsi hazırlandı. Gələcəkdə Rusiya-Türkiyə danışıqlarının Bakıda keçirilməsi razılaşdırıldı. Lakin bir qədər sonra RSFSR xalq xarici işlər komissarı G.Çiçerin konfransın Moskvada keçiriləcəyini və burada Azərbaycan və Ermənistan nümayəndələrinin də iştirak edəcəyini bildirdi. Əslində, bununla G.Çiçerin konfransa Azərbaycanı və Ermənistanı qatmaqla həm bu dövlətlərin xarici siyasətini öz əlində cəmləşdirmək və Türkiyəyə qarşı qoymaq, həm də gələcəkdə Güney Qafqazdakı niyyətlərini həyata keçirmək üçün zəmin hazırlamaq istəyirdi.

Türkiyə bu təkliflə razılaşmadı. Onlar Azərbaycan, Gürcüstan və Ermənistanla müqavilə bağlamaq istəyirdi. Üstəlik, Türkiyə bildirirdi ki, onların Azərbaycanla heç bir mübahisəli məsələsi yoxdur. Ermənistana gəldikdə isə Türkiyə Gümrü (Aleksandropol) müqaviləsini qüvvədə hesab edir və ondan imtina etmək istəmirdi.

1921-ci ilin fevral ayında Ankara hökumətinin yeni xarici işlər naziri Yusif Kamal bəyin başçılığı ilə Əli Fuad və doktor Rza Nurdan ibarət diplomatik nümayəndə heyəti Moskvaya gələrək yeni danışıqlara başladı. Danışıqlarda Rusiya tərəfindən G.Çiçerin və RSFSR MİK üzvü C.Qorxmazov iştirak edirdi. Müzakirələr çox gərgin keçmiş və hətta danışıqlar bəzən pozulmaq həddinə çatmışdı. Bir sıra məsələlərlə yanaşı, danışıqlarda Naxçıvan məsələsinə də xüsusi əhəmiyyət verilmişdi. Türkiyə bu məsələyə ona görə böyük önəm verirdi ki, Naxçıvan Türkiyə-Azərbaycan əlaqələrində ən yaxın məsafədə yerləşirdi.

Moskva danışıqlarında Azərbaycanın təmsilçisi Behbud ağa Şahtaxtinski də iştirak etmiş və uğurlu nəticənin əldə edilməsində onun mühüm xidməti olmuşdur. Belə ki, o, 1921-ci il martın 1-də V.İ.Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Lenin bu təkliflərlə tanış olduqdan sonra onu Siyasi Büroya göndərmişdi. Behbud ağa Şahtaxtinskinin məktubu martın 16-da Stalinin, Çiçerinin və digərlərinin iştirakı ilə baxılmış və Azərbaycanın himayəsində Naxçıvana muxtariyyət statusu verilməsi haqqında qərar qəbul olunmuşdu.

Bütün bunlar Moskva müqaviləsində əks olundu. Bir aya yaxın davam etmiş danışıqların yekunu 1921-ci il martın 16-da imzalanmış "Dostluq və qardaşlıq haqqında" RSFSR-Türkiyə müqaviləsində öz əksini tapdı. Moskva müqaviləsi 16 maddədən və 3 əlavədən ibarət idi.

Moskva müqaviləsinin üçüncü maddəsi və I (B) əlavəsi bilavasitə Naxçıvanla bağlı idi. Müqavilənin 3-cü maddəsinə əsasən, belə bir qarşılıqlı qərar qəbul edildi ki, Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında heç bir üçüncü dövlətə güzəştə getməmək şərti ilə muxtar ərazi təşkil edir. "Naxçıvan ərazisi" adlı I (B) əlavəsində isə bölgənin sərhədləri müəyyənləşdirildi: "Ararat stansiyası-Saray-Bulaq dağları-Kömürlüdağ -Sayatdağ-Qurdqulaq kəndi-Həməsur dağı -yüksəklik (8022)-Küküdağ və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi".

Beləliklə, Rusiya hökumətinin ermənipərəst mövqeyinə və erməni kommunistlərin riyakar siyasətinə baxmayaraq, Naxçıvan əhalisinin qətiyyətli, dönməz iradəsi, Türkiyənin prinsipial və ədalətli mövqeyi və görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin səyləri ilə Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı. V.İ.Lenin Türkiyə ilə sülh sazişindən danışarkən demişdi ki, bu, *"bizi Qafqazdakı daimi müharibələrdən xilas edir".* Lakin bu sözlər özünü doğrultmadı. Nəriman Nərimanov qeyd etmişdir ki, *"Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən, Naxçıvan Azərbaycanın tərkibində müstəqil respublika elan olunur. Orda bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik".* Yusif Kamal bəy isə yazmışdır ki, *"Naxçıvan müsəlmanları bir daha soyqırıma məruz qalacağı halda türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdir".*

Moskva müqaviləsinin imzalanmasının böyük tarixi əhəmiyyəti vardır. İlk növbədə, bu müqavilə Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri həll etdi. Rusiya və Türkiyə sıx ittifaqda birləşdi, təbii müttəfiqə çevrildilər. Moskva müqaviləsi Azərbaycanın bütövlüyünü qorudu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi. Bu müqaviləyə görə qədim türk-oğuz yurdu olan Naxçıvan Azərbaycan sərhədləri içərisində qaldı.

Bütün bunlara baxmayaraq, erməni daşnakları XX əsr boyu Naxçıvanı ilhaq siyasətindən əl çəkməmiş, ötən əsrin 90-cı illərinin əvvəllərində buraya silahlı basqınlar etmiş, Moskva və Qars müqavilələrinin ləğv edilməsi üçün xeyli fəallaşmışlar. Lakin ümummilli liderimiz Heydər Əliyev 1992-ci ilin mart ayında Türkiyə Cümhuriyyətində səfərdə olarkən Moskva və Qars müqavilələrini gündəmə gətirmiş, bu müqavilələrin xalqımızın həyatındakı tarixi rolunu yüksək qiymətləndirmişdir.

Göründüyü kimi, Naxçıvanın muxtariyyəti statusu bu gün qüvvədə olan, imzalanmasından 95 il keçən Moskva beynəlxalq müqaviləsi ilə təsdiqlənir. Bu muxtariyyət milli-etnik yox, siyasi amillərlə, Naxçıvanın özünəməxsus geopolitik və tarixi-coğrafi mövqeyi ilə şərtlənib. Müqaviləni imzalayan heç bir dövlət onu birtərəfli qaydada ləğv edə bilməz. Çünki Moskva müqaviləsinin birtərəfli qaydada ləğvi beynəlxalq müqavilələr haqqında 1969-cu il Vyana konvensiyasının, 1975-ci il Helsinki müşavirəsinin Yekun Aktının müddəalarına ziddir.

***Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsi beynəlxalq Moskva müqaviləsi ilə rəsmiləşdirilib. Özü də müddətsiz dövr üçün. Bu müqavilənin müddətsiz bağlanması onun tarixi əhəmiyyətini daha da artırır. İfrat erməni millətçilərinin Moskva müqaviləsini qüvvədən salmaq üçün dəfələrlə müxtəlif hiylələrə əl atmalarına baxmayaraq, bu tarixi sənəd öz hüquqi qüvvəsini bundan sonra da qoruyub saxlayacaqdır.***

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Eynəli bəy Sultanova həsr olunmuş elmi konfrans

***Naxçıvan Dövlət Universitetində "Eynəli bəy Sultanovun Naxçıvan ədəbi mühitinin formalaşmasında rolu" mövzusunda elmi konfrans keçirilib.***

Elmi konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" 2016-cı il 15 fevral tarixli Sərəncam imzalayıb. Vurğulanıb ki, ədəbi-mədəni fikir tariximizdə öz dəst-xətti ilə seçilən Eynəli bəy Sultanov bütün ömrünü təmənnasız olaraq xalqın, millətin tərəqqisi yolunda fəda edib. O, dünyanın qabaqcıl ədəbi-mədəni fikrini Azərbaycana gətirərək, Azərbaycan xalqının dünyada tanınmasına çalışıb.

"Obrazlı şəkildə demək mümkündür ki, mollanəsrəddinçi təlimə gedən yol müəyyən mənada Azərbaycan maarifçilik hərəkatından, o cümlədən Eynəli bəy Sultanov təfəkküründən keçir. Daha doğrusu, "Molla Nəsrəddin" məktəbinin insanları qəflət yuxusundan ayıltmaq, cəmiyyəti elmsizlikdən xilas etmək, qadın hüquqsuzluğunu gündəmə gətirmək kimi tarixi missiyalarını biz Eynəli bəy Sultanovun həyat və fəaliyyətində də izləyirik. Eynəli bəy Sultanov 1907-ci ildən sonra "Molla Nəsrəddin" jurnalında "Neştər" imzası ilə yazılar da çap etdirib, Naxçıvan və İrəvan müxbiri olaraq mollanəsrəddinçilər sırasında özünəməxsus yer tutub". Bu fikirləri ali məktəbin Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərli "Eynəli bəy Sultanov və mollanəsrəddinçi təlimi" mövzusundakı məruzəsində səsləndirib.

Elmi konfransda Kitabxanaçılıq kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Nəzakət İsmayılovanın "Eynəli bəy Sultanov mədəni-maarif tədbirlərinin fəal təşkilatçısı kimi", Azərbaycan dilçiliyi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Qalibə Hacıyevanın "Eynəli bəy Sultanovun yaradıcılığında dialektizmlər", Azərbaycan



ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Seyfəddin Eyvazovun "Eynəli bəy Sultanov və teatr" mövzularında məruzələri dinlənilib. Qeyd olunub ki, Eynəli bəy Sultanov mədəni-maarif tədbirlərinin təşkilatçısı, mütərəqqi ziyalılar dəstəsinin ilk müəllimi və tərbiyəçisi kimi tanınırdı. Hələ 1882-1883-cü illərdə Naxçıvanda "Ziyalı məclisi", "Müsəlman şiə dram incəsənət cəmiyyəti" kimi ədəbi-mədəni mərkəzlər yaratmışdı.

Elmi konfransın bədii hissəsində tələbələr Azərbaycan ədəbiyyatı, mətbuatı, teatrı və ictimai fikir tarixində özünəməxsus yeri olan şəxsiyyətlərdən biri Eynəli bəy Sultanovun "Seyidlər" hekayəsindən və "İfşaedici vərəqlər" silsilə məqalələrindən parçalar səsləndiriblər.

**Mina QASIMOVA**

***Dəmiryol nəqliyyatı bir zamanlar naxçıvanlıların ən çox istifadə etdiyi vasitələrdən olub. Xüsusilə muxtar respublikadan kənara çıxmaq istəyənlərin böyük əksəriyyəti öz səfərlərini sərnişin qatarları ilə edib. Sərnişin qatarları çoxlarının oxumaq, işləmək, hərbi xidmət keçmək və yaxud səyahət üçün üz tutacağı ünvanlara doğru hərəkət edəcəyi yolun başlanğıcı olub. Bəlkə də buna görədir ki, bu qatarların hərəkət etdiyi dəmir yollarını çoxları kimi mən də Naxçıvandan ilk səfərlərimin cığırları kimi, xoş xatirə kimi yaddaşımın bir küncündə saxlamışam. Niyə xoş xatirə deyirəm? Çünki qatarda yolçuluq digər nəqliyyat vasitələrindən fərqlənir. Qatarda yol getmək bir neçə saat, bəzən isə günlərlə sürə bilər. Təbii ki, bu müddətdə insanlarla yeni tanışlıqlar, onlarla maraqlı söhbətlər, yolboyu gördüyün mənzərələr istər-istəməz sonradan xatirəyə çevrilir. Hətta texnoloji vasitələrin olmadığı sovet dövründə "qatar tanışlıqları" bəzən elə rol oynayırdı ki, çox zaman müəlliflər öz qəhrəmanlarının bir-birini tanıması üçün ssenaridə onları eyni qatarın sərnişini kimi "qarşılaşdırırdılar". Yəni demək istədiyim odur ki, qatarda sərnişin olmağın öz üstünlükləri var. Eyni zamanda dəmiryol nəqliyyatı təhlükəsizlik baxımından da digər nəqliyyat vasitələrindən müsbət tərəfləri ilə seçilir. Bir sözlə, bütün bu xatirələri təzələmək üçün yenidən qatarda sərnişin olmağa dəyərdi. Və fikirləşdiklərimizi reallaşdırmaq üçün muxtar respublikamızın cənub sərhədləri boyunca bir neçə saatlıq olsa da, səfərə çıxmağı qərara aldıq.***

## Xatirəyə çevrilmiş səfərlər, məsuliyyətli peşənin sahibləri, sabaha uzanan dəmir arzular

*(Reportaj)*



...Naxçıvan şəhərindəki dəmiryol vağzalına çatanda Şərurdan Ordubad dəmiryol stansiyası istiqamətində hərəkət edəcək qatarın gəlməsinə hələ 15-20 dəqiqə var idi. Bu vaxtdan istifadə edib çoxdan bəri yolum düşməyən dəmiryol vağzalını gəzmək istədim. Yəqin qatarın gəlməsinə az vaxt qaldığından idi ki, stansiyada sərnişinlərə də rast gəlirik. Hər halda əllərində yük və bağlamalar olduğundan belə düşünürük. Elə bu zaman tanış bir səs bizi geri dönməyə vadar edir. Cəbrayıl Həşimov "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində sərnişindaşıma sahəsinə məsul şəxsdir. Bir gün əvvəl telefonla danışmışdıq. İndi isə hal-əhvaldan sonra o da bizi səfərdə müşayiət etmək istəyini bildirir. Faydalı olduğunu düşündüyümü deyirəm, eyni zamanda da fikirləşirəm ki, yolboyu maraqlı söhbət edərik. İndi isə müsahibimizlə birlikdə ətrafı gəzirik. Cəbrayıl müəllim deyir ki, muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri sayəsində Naxçıvan şəhərindəki dəmiryol vağzalının inzibati binası da əsaslı şəkildə yenidən qurulub. Binanın memarlıq dizaynı saxlanılmaqla, burada sərnişinlər üçün hərtərəfli şərait yaradılıb. Vağzal binasında sərnişinlər üçün geniş gözləmə zalı, bufet, kassa fəaliyyət göstərir. Hər tərəfdə təmizlik hökm sürür. Gözləmə zalında da sərnişinlər var. Bina müasir istilik sistemi ilə təmin olunub. İçəridəki səliqə-sahmanı çöldə də görmək mümkündür. Artıq platformada qatarı gözləyənlərin sayının artdığını görürük. Və budur, gələn fit səsi sərnişin qatarının stansiyaya daxil olduğunu xəbər verir. Şərur və Kəngərli rayonlarından gələn sərnişinlərin əksəriyyəti burada düşür. Biz isə qatara minib öz yerimizi alırıq. Bir neçə dəqiqə sonra tanış fit səsi yenidən eşidilir və qatar növbəti stansiyaya doğru hərəkətə başlayır...



Sərnişinlərin istifadə etdiyi vaqonlar haqqında onu deyim ki, bu vaqonlar muxtar respublika ərazisində hərəkət üçün uyğunlaşdırılıb. İlk baxışda elektrik qatarlarının vaqonlarını xatırlatsa da, buradakı oturacaqlar yumşaqlığı ilə seçilir. Vaqonlar daxili imkanlar hesabına əsaslı təmir olunub, bələdçilər üçün yerlər ayrılıb, sanitar qovşaqlar yenilənib. Vaqonların hamısı istilik sistemi ilə təmin olunub ki, bu da payız-qış mövsümündə sərnişinlərin rahat gediş-gəlişinə şərait yaradır. Bundan əlavə, buradakı səliqə-sahman da göz oxşayır. Qatar bələdçisi Ramiz Rzayevlə tanış oluruq. Bildirir ki, bələdçilər növbə ilə səfərə çıxır və hər növbə dəyişilərkən təmizliyə də diqqət yetirilir. Həmsöhbətim deyir ki, özü Culfa şəhərində dəmiryolçu ailəsində böyüyüb. Atası uzun müddət dəmir yolunda çalışıb, indi isə özü bu sahədə fəaliyyət göstərir. Qeyd edir ki, vaqon bələdçisi olmaq məsuliyyətli işdir. Əsas odur ki, gülərüz olasan, sərnişinlərlə dil tapmağı bacarasan. Hər gün yeni sərnişinlərlə rastlaşırsan. Elə xidmət aparmalısan ki, hər kəs səndən razı qalsın. Müsahibimizdən qatarlardan daha çox kimlərin istifadə etdiyini soruşuruq. Bildirir ki, Ordubad-Vəlidağ və əks istiqamətdə hərəkət edən qatarlardan, əsasən, dəmiryol stansiyasına yaxın yaşayış məntəqələrinin sakinləri istifadə edirlər. Eyni zamanda Culfa, Naxçıvan və Şərur şəhərlərində yaşayanlar da mütəmadi istifadə edirlər. Ən ucuz nəqliyyat vasitəsi, həm də müəyyən yüklərin daşınmasında əlverişli olduğuna görə istifadə edənlər də az deyil, – deyə həmsöhbətim sözünə davam edir. Bildirir ki, qatara əlavə yük vaqonu da qoşulur ki, bu da böyükhəcmli yüklərin daşınmasında əhəmiyyətli rol oynayır. Təsərrüfatçılar, xüsusən də Şərur rayonundan məhsulunu Naxçıvana gətirmək istəyənlər bundan istifadə edirlər. Öyrənirik ki, qatarların həm də daimi sərnişinləri var. Bunlar, əsasən, sərhədçilər və dəmiryol stansiyasında növbə ilə çalışan işçilərdir. Yolboyu sərnişinlərlə söhbət edirik. Sərhədçi əsgərlərdən Araz Yusifov, İlkin Mehdiyev, Culfa şəhərindən Həsən Qurbanov, Gülnaz Əliyeva qatardan tez-tez istifadə etdiklərini söyləyirlər. Sərnişin Vasif Hüseynov gediş haqqının ucuz olduğuna və bəzən özü ilə bərabər apardığı əl yükünün həcminə görə Culfa-Naxçıvan və əks istiqamətdə qatara üstünlük verdiyini deyir. Yolboyu söhbətləşdiyimiz digər sərnişin isə dəmir yolu işçisidir. Onunla söhbətimiz maraqlı alınır. Məmməd Zeynalov da dəmiryolçu ailəsində dünyaya göz açıb. Ömrünün 35 ildən çoxunu yük maşinisti kimi çalışıb. İndi isə Ordubad dəmiryol stansiyasına növbəyə gedir. Hazırda dəmir yollarının keçdiyi körpü və tunellərdə texniki təhlükəsizlik sahəsində işini davam etdirir. Deyir ki, sovet dövründə, əsasən, yükdaşımalarında işləyib. Maşinist peşəsi necə peşədir? – sualıma müsahibim belə cavab verir: "Maşinist peşəsi çox çətin, məsuliyyətli, eyni zamanda şərəfli bir peşədir. Ona görə məsuliyyətlidir ki, məsələn, vaxtilə idarə etdiyim teplovoza 30, 40, bəzən isə 60-a yaxın yük vaqonu qoşulub, hər birinin də çəkisi 60 ton olub. Bu yükü təhlükəsiz bir şəhərdən başqa şəhərə daşımaq insandan iradə, dözüm, məsuliyyət və peşəkarlıq tələb edirdi. Sovet dövründə Azərbaycan daxilində, eyni zamanda ölkədən kənara yüklər daşımışıq, həm də gətirmişik. Elə olub həftələrlə səfərdə olmuşuq, ancaq çalışmışıq işimizi vaxtında və layiqincə yerinə yetirək. Maşinist həm də qorxmaz olmalıdır. Yaxşı xatirimdədir, 1990-cı il idi. O zaman Bakıdan gələn yüklərin çoxu Mehri stansiyasına gəlirdi, orada Bakı teplovozlarından ayrılırdı, biz isə Naxçıvandan gedib o yükləri gətirirdik. Həmin ilin əvvəllərindən vəziyyət xeyli mürəkkəbləşmişdi. O yükləri gedib gətirənə kimi çox əziyyət çəkirdik. Ermənilər xeyli problemlər yaradırdı. Heç yadımdan çıxmaz, 1992-ci il aprelin 22-si idi. İdarədən bildirdilər ki, yüklər gəlib Mehri stansiyasına, gedib gətirmək lazımdır. Köməkçi maşinist yoldaşım Vilayətlə buradan çıxdıq. Mehri stansiyasına çatanda gördük ki, ermənilər əli silahlı stansiyanı dövrəyə alıblar. Burada xeyli çətinliklərlə qarşılaşdıq. İsrar etsək də, heç bir yükü apara bilməyəcəyimizi və oradakı erməni hərbçilərinin bizi vura biləcəyini dedilər. Məcbur qalıb geriyə – Naxçıvana tərəf hərəkətə başlayarkən idarə etdiyimiz teplovoz atəşə tutuldu. Oxşar münasibət bizdən əvvəl digər maşinist yoldaşlarımızın da başına gəlmişdi. Heç yadımdan çıxmaz, 47 vaqon yük qaldı orada və mənim idarə etdiyim 1361 nömrəli teplovoz böyük ehtimalla oradan çıxan son teplovoz oldu. Çünki sabahkı gün xəbər gəldi ki, Ordubaddan sonra olan tunellərin çoxu ermənilər tərəfindən partladılıb".

Cəbrayıl Həşimov da bildirdi ki, həmin dövrdə naxçıvanlı maşinistlərin bir çoxu əsl qəhrəmanlıq göstərmişdi. O zaman Naxçıvana gələcək xeyli sayda yük vaqonları var idi ki, çoxunu çıxarmaq mümkün olmadı. Hamısı qaldı orada. Bildirdi ki, əslində, İmişli rayonunadək olan dəmir yolu hissəsinə Naxçıvan dəmir yolu bölməsi nəzarət edirdi. Yəni bu istiqamətdə yerləşən stansiyaların hamısında işləyən işçilər Naxçıvan dəmiryol bölməsinə tabe idi. Ancaq 1992-ci il aprelin 24-də dəmir yolu nəqliyyatının hərəkəti tamamilə dayandı və o istiqamətdə bu günədək heç bir hərəkət olmadı.

...Qatar yenidən fit verir və bir az getdikdən sonra dayanır. Bələdçi: – Ordubaddır, sonuncu stansiyadır, – deyir. Ayağa qalxıb, vaqondan aşağı düşürük. Deyəsən, blokadanı ilk dəfə burada hiss edirəm. Demək ki, buradan o tərəfə yol yoxdur – öz-özümə fikirləşirəm. Yeri gəlmişkən qeyd edək ki, artıq Ordubad dəmiryol vağzalının da inzibati binası yenidən qurulur. Tezliklə burada da sərnişinlərin rahatlığı üçün hərtərəfli şərait yaradılacaq...

...Ertəsi gün isə Naxçıvan-Şərur dəmir yol stansiyaları istiqamətində hərəkət etdik. Yolboyu Kəngərli rayonunun Şahtaxtı kəndindən, Şərur rayonunun Püsyan, Aşağı Daşarx kəndlərindən, eləcə də rayon mərkəzindən olan sərnişinlərlə söhbət etdik. Söhbətləşdiyimiz sərnişinlər dəmir yolu xidmətindən razılıq etdilər, istifadə etdikləri qatarların daha uzaqlara getməsinin ən böyük arzuları olduqlarını bildirdilər. Biz isə ötən yazıda qeyd etdiyimiz fikirləri bir daha oxucularımıza xatırlatmaq istədik: Naxçıvan blokada vəziyyətinə salınsa da, nə yaxşı ki burada dəmir yolu nəqliyyatının fəaliyyətinə son verilmədi. Əksinə, yerli imkanlar hesabına, fədakar insanların səyi nəticəsində bu nəqliyyat infrastrukturunda mümkün olan hər şey edildi ki, vaqonlarımız sərnişinsiz, qatarlarımız hərəkətsiz qalmasın.

***P.S.*** *Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İran İslam Respublikasına səfərindən bir neçə gün sonra Naxçıvanda Azərbaycan və İran tərəfinin müvafiq qurumları arasında Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması ilə bağlı müzakirələrin aparılıb. Siyasi tərəflərinə varmadan qeyd edək ki, ölkə başçısının İran İslam Respublikasına son səfəri və iki ölkə arasında əldə edilən razılaşmalar Ermənistanın yaxın gələcək üçün əldə etmək istədiyi iqtisadi və siyasi dividentlərin üstündən qalın bir xətt çəkir. Cənubi Qafqazda həyata keçirilən bütün böyük layihələrdən kənarda qalan düşmən ölkə vaxtilə Naxçıvana gələn dəmir yolunu bağlamaqla həm də özünü çox çətin vəziyyətə salıb. Yaxın gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi planları Naxçıvanı blokadanın çətinliklərindən xilas edəcək. Görünən odur ki, Naxçıvan onu sevməyənləri hər zaman məyus etməyi bacarır...*

Səbuhi HƏSƏNOV

## "Şərur-3" MMC-də yüksəkkeyfiyyətli məhsullar istehsal olunur



*Muxtar respublikamızın təbii sərvətlərindən səmərəli istifadə olunmaqla yeni emal və sənaye müəssisələri həyata vəsiqə alır, daxili bazarın tələbatına uyğun yüksəkkeyfiyyətli yerli məhsullar istehsal edilir, əhalinin məşğulluğu təmin olunur, maddi rifahı daha da yaxşılaşır. Belə istehsal müəssisələrindən biri də Şərur rayonunun Məmmədsabir kəndində fəaliyyət göstərən "Şərur-3" Məhdud Məsuliyyətli Cəmiyyətidir.*

Müəssisənin direktoru Zakir Məmmədov bizimlə söhbətində bildirdi ki, uyğunlaşdırılmış binada fəaliyyət göstərən müəssisədə istehsal olunan məhsullara artan tələbatın ödənilməsi, yeni istehsal sahələrinin yaradılması və bunun nəticəsi olaraq əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi, daha müasir texnoloji avadanlıqların alınıb gətirilməsi zərurəti yaranmışdı. Digər sahibkarlıq subyektləri kimi, bu müəssisə də dövlət qayğısından bəhrələnmiş, Sahibkarlığa Kömək Fondu tərəfindən 2012-ci ilin mart ayından başlayaraq mərhələlərlə, ümumilikdə, 180 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Şərur rayonunun Məmmədsabir kəndində istehsal müəssisəsi üçün daha əlverişli yerdə 4950 kvadratmetr torpaq sahəsi ayrılmış, burada müasir layihə əsasında 630 kvadratmetr ərazidə emal bölməsi, istehsal və qablaşdırma sahələri, xammal və hazır məhsulların saxlanılması üçün anbar, yeməkxana, laboratoriya və digər yardımçı otaqlardan ibarət ikimərtəbəli bina tikilib istifadəyə verilmişdir. Həmçinin müəssisənin həyətində 420 kvadratmetr ərazidə taraların saxlanılması üçün çardaq qurulmuş, meyvə, giləmeyvə və təbii bitkilərdən hazırlanmış cövhərlərin Günəş şüası dəymədən saxlanılması üçün yeraltı anbar tikilmiş, həyətdə abadlıq işləri aparılmışdır. 2015-ci ilin dekabr ayından fəaliyyətə başlayan müəssisədə 2 istehsal sahəsi – likör və araq istehsalı üçün hər cür şərait yaradılmış, Türkiyə Respublikasından alınmış istehsal gücü saatda 2 min ədəd şərti butulka olan müasir texnoloji avadanlıqlar quraşdırılmış, istehsal prosesi avtomatlaşdırılmışdır.

Müəssisədə müxtəlifhəcmli şüşə butulkalarda olmaqla muxtar respublikamızda bitən və yetişən albalı, ərik, şaftalı, heyva, qara tut, zirinc, kəklikotu, baldırğan cövhərlərindən və yüksəkkeyfiyyətli spirtdən hazırlanmış 3 çeşiddə likör və 14 çeşiddə araq istehsal edilir. Müəssisədə istehsal edilən məhsullar gümüş filtrdən keçirilərək standartlara uyğun süzülüb 100, 250 və 500 millilitrlik şüşə butulkalara qablaşdırılır. Xüsusi dizayn və nəfis tərtibatla bəzədilmiş taralar Bakı şəhərindən, Rusiya, Moldova və Ukrayna respublikalarından, qapaqlar isə Bakı şəhərindən, Türkiyə və Moldova respublikalarından idxal olunur.

Müəssisədə məhsulun keyfiyyətinə laborator nəzarət təmin olunmuşdur ki, burada da xammal və hazır məhsulların ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bir sözlə, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyətə başlayan müəssisədə istehsal prosesi avtomatlaşdırılaraq standartlara uyğun, ekoloji cəhətdən təmiz, yüksəkkeyfiyyətli məhsul istehsalına nail olunmuşdur.

Satışa çıxarılan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də keyfiyyəti ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. Gələcəkdə müəssisədə istehsal edilən məhsulların ölkəmizin digər regionlarında və xarici bazarlarda satışa çıxarılması nəzərdə tutulmuşdur.

Kərəm HƏSƏNOV

# Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

***Fevral ayında muxtar respublikamızda epidemioloji vəziyyət sabit olub. Zəhərlənmələr baş verməyib, infeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilib.***

Yenidoğulmuş uşaqların 96,9 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd alıb. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai-iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilib, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, məişət tullantıları qoyulan meydançalarda 95 min 340 kvadratmetr dezinfeksiya və 21 min 20 kvadratmetr dezinseksiya tədbirləri həyata keçirilib.

Kəskin respirator və digər infeksion xəstəliklərin qarşısının alınması məqsədilə bütün ictimai-iaşə, ticarət obyektlərində, su təchizatı, sərhəd-gömrük məntəqələrində, həmçinin Naxçıvan Beynəlxalq Hava Limanında profilaktik əks-epidemik tədbirlər həyata keçirilməklə muxtar respublikaya xarici ölkələrdən gələn sərnişinlər üzərində xəstəliyə şübhəli hərarətli şəxslərin aşkar olunması üçün uzaq məsafədən ölçən termometr sistemləri quraşdırılıb. Bütün gömrük məntəqələri və hava limanında vətəndaşlar üzərində vizual müayinə aparılması təmin olunub.

Ay ərzində Bakterioloji laboratoriya fəaliyyətini davam etdirərək 58 su, 62 yuyuntu nümunələrinin, 540 digər nümunələrin müayinələrini aparıb.

Həmin dövrdə obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılıb, səhiyyə üzrə 183, təhsil üzrə 284, qidalanma sənayesi, ictimai-iaşə və ticarət üzrə 139, kommunal sahələr üzrə 70, sürücülük üzrə 33 nəfər olmaqla, bütövlükdə, 709 nəfər müayinədən keçib.

Sanitariya-kimyəvi laboratoriyalar şöbəsinin Qidalanma gigiyenası laboratoriyasında 12 nümunədə 29 müayinə aparılıb, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun, həmçinin 3 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu müəyyən edilib.

Kommunal gigiyena laboratoriyasında 12 nümunədə 75, Toksikoloji, xarici mühitdə və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 4 nümunədə 16 müayinə aparılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Yaxşı usta tanımırsan?

***Bir çoxumuz evimizin müəyyən təmir işləri üçün həmişə peşəkar usta axtarır, "Yaxşı usta tanımırsan?", – deyə bir-birimizə sual veririk. Kimi məhəllədəki qonşusu, kimi dost-tanışı, kimi iş yoldaşları vasitəsilə rastlaşdığı belə cari məsələləri həll etməyə çalışır. Amma bəzən iş düyünə düşəndə arzu etdiyimiz yaxşı usta əvəzinə elə naşısı da qarşımıza çıxır ki, sonra beşmanatlıq xərci olan kiçik bir işə on manat da əlavə ödəməli oluruq.***

Cəmiyyətin müasir inkişaf səviyyəsində hər bir peşə sahibi öz əməyi ilə faydalıdır. Tələbatlarımız artdıqca iqtisadiyyatın müxtəlif sahələrində çalışan peşə sahibləri üçün də yeni iş imkanları yaranır. Bu imkanlardan istifadə edən belə peşə sahibləri öz məşğulluqlarını təmin etməyə çalışırlar.

Məşğulluq problemi cəmiyyətin bütün inkişaf dövrlərində mövcuddur. Bir çox insanlar üçün əmək özünün və ailəsinin tələbatlarının ödənilməsi vasitəsi, bir başqaları üçün isə digər insanlara faydalı ola bilmək yoludur. Bu, elə bir düşüncədir ki, hər bir insan məhz əməklə torpağa atılan hər dənin, üst-üstə qoyulan hər bir kərpicin, son nəticədə, süfrələrimizə bolluq, evimizə yaraşıq, yolumuza abadlıq gətirdiyinə inanaraq halal zəhmətə qatlaşır. Beləliklə, peşə və ixtisasından asılı olmayaraq, hər kəs üçün faydalı olan əmək inkişafın elə bir amili hesab olunur ki, onun vasitəsilə hər birimiz sağlamlığımızdan tutmuş kiçik bir təmir işinə qədər olan tələbatlarımızı ödəyə bilirik.

Yaxşı peşə, sənət sahibi olmaq gələcəkdə məşğulluğu təmin etməkdən əlavə həm də bu insanların xidmətlərindən istifadə edənlər üçün də bir rifah deməkdir. Şübhəsiz, yaxşı avtomobil təmirçisi və ya qaynaqçının, rəngsaz və ya dülgərin işi hər yerdə bəyənilir və onların gördükləri iş camaat arasında öz-özünə saf-çürük edilərək, necə deyərlər, reklam olunur. Bəli, məhz ona görə öz-özünə reklam dedik ki, birincisi, görülən hər yaxşı işin özü ən yaxşı reklamdır. İkincisi isə bizdə reklam bazarı hələ tam inkişaf etmədiyindən elə bu cür ağızdan-ağıza eşidilən, yalnız dost-tanış zəmanətinə inanaraq hansısa ustaya üz tutmağımız artıq bir dəbə çevrilib. Amma əgər işdir, birdən bu zəmanət özünü doğrultmasa, onda problem də ikiqat artır. Deməli, elə peşə, sənət növləri vardır ki, onların sahiblərini ya hamı tanımalı, ya da bu məsələyə bir tənzimləmə gətirilməlidir.

Əslində, haqqında danışdığımız məsələ ilə hamı tanışdır. Yəni biz bu gün bir çox məhsulları idxal etsək də, bəzi xidmətlər, məsələn, tibb xidmətləri istisna olmaqla, əsas xidmətləri öz yerli mütəxəssislərimizdən almağa üstünlük veririk. İndiyə qədər kimsə barmağını qatlayıb deyə bilməz ki, hardansa əcnəbi bənna, qaynaqçı, lehimçi, qəlibçi, çilingər, dərzi, suvaqçı, fotoqraf, montajçı və daha bu kimi digər peşə sahiblərini dəvət edib onlara iş təklif etmişik. Ola bilər ki, yeni texnologiyanın tətbiqi ilə qısa müddətə bu işləri əvəz edən əcnəbi mütəxəssisə ehtiyacımız olub, amma bu problem dövlətimizin qayğısı sayəsində, demək olar ki, tamamilə öz həllini tapıb. Onlarla ixtisas üzrə Naxçıvan şəhərində və Şərur rayonunda peşə tədrisi üzrə fəaliyyət göstərən məktəbləri bitirən çox sayda müdavimlər hazırda muxtar respublikamızın əmək bazarında müxtəlif peşələrə olan tələbatı ödəyirlər.

Ancaq müşahidələr göstərir ki, belə peşə sahiblərinin hazırlanması təkcə bu işin tam həlli demək deyildir. Sözsüz ki, belə sənət sahibləri fərdi qaydada öz məşğulluqlarını təmin etdiyindən onların da əksəriyyətində müasir dillə desək, ictimaiyyətlə əlaqələr işi yalnız dədə-baba qaydası, yəni yuxarıda qeyd etdiyimiz kimlərinsə reklamı ilə baş verir. Ancaq bu, müəyyən sahələrdəki problemləri həll etmir. Məsələn, ola bilər ki, müraciət etdiyimiz hansısa dərzinin səliqəsiz işi bizi qane etməsin. Oxuculardan kimsə deyə bilər ki, burada qabardılacaq nə var ki? Bəli, burada kiməsə güzəşt ola bilər. Ancaq evimizin təmirini həvalə etdiyimiz naşı ustanın quraşdırdığı yarıtmaz su, istilik sisteminin nə kimi fəsadlar törətdiyini bir çoxumuz yaxşı bilirik. Yaxud belə bir səriştəsizlik elektrik xətlərinin çəkilişində olarsa necə? Texniki standartlara düzgün əməl olunmadan çəkilmiş qaz xətlərindəki sızmadan, elektrik naqillərindəki qısaqapanmadan baş verən yanğın, partlayış və ya dəm qazı zəhərlənməsi kimi bədbəxt hadisələrin də əsas səbəblərindən biri budur. Digər bir tərəfdən, hardan gəldi tapılıb, iş görmək üçün dəvət olunan belə peşə sahibləri ilə risk səviyyəsi yüksək olan işlər zamanı heç bir müqavilənin olmaması çox sayda problemlər yaradır. Belə ki, iş təklif edən şəxslə hər hansı müqaviləsi olmayan və texniki təhlükəsizlik şərtlərinə düzgün əməl etməyən peşə sahibinin istehsalatda bədbəxt hadisələrdən sığortası olmadığı üçün baş verə biləcək təsadüfi hadisə zamanı sağlamlığını və ya həyatını itirdiyi zaman heç bir maddi təminatı olmadığı kimi, o, təqaüd yaşına çatdığında sosial sığorta fondundan da heç bir maddi təminat ala bilməyəcək. Belə hallara isə tez-tez rast gəlinir. Digər bir tərəfdən, müqavilə bağlamadan, yalnızca şifahi razılaşma yolu ilə görülən belə işlərin sonunda bir çox hallarda tərəflər arasında müxtəlif səbəblərdən mübahisələr yarandığı da məlumdur. Odur ki, əmək bazarında müxtəlif peşə sahiblərinin xidmətlərinə olan tələbin ödənilməsi üçün artıq müasir dövrün reallıqları əsasında dünya təcrübəsinin tətbiqi aktuallıq kəsb edir. Belə ki, məsələn, bu gün Almaniyada peşə sahiblərinə işlər təklif olunduqda hökmən müqavilə bağlanılması, ustanın lisenziyalı və sözsüz ki, sığortalı olması tələb edilir. Qaldı ki, işin tapılması, bu da çox sadə və ucuz yolla həll olunur. İnternet hər yerdə olduğu kimi, əmək bazarında da işçi və sahibkarın bir-birini tapa bilməsi üçün ən əlverişli məkandır. Bu sahədə insanlara müxtəlif peşə sahiblərinin təklif etdiyi xidmətlər haqqında lazım olan informasiyanı verə biləcək hansısa sahibkarın fəaliyyətinə ehtiyac yaranır. Sahibkarlığın inkişafına böyük qayğı göstərildiyi, yeni müəssisələrin yaradılması üçün güzəştli kreditlər verildiyi bir dövrdə bunu reallaşdırmaq çox asan məsələdir. Məsələn, bu gün avtomobil hissəsi və ya təmirçisi lazım olduqda şəhərimizdə yaradılmış müasir bir mərkəzə müraciət edir, lazım olan tam servis ala bilirik. Ancaq digər peşə sahibləri lazım olduqda bəlkə günlərlə vaxt itirib konkret olaraq kimə müraciət edəcəyimizi bilmir və ya seçim qarşısında qalırıq. Halbuki bütün işləri bacara bilən peşəkar ustalarımız olduğu halda, bu məsələ bir telefon zəngi qədər asan olmalıdır. Bir sıra inkişaf etmiş ölkələrdə olduğu kimi, bizdə də evlərdə təmir işlərini həyata keçirən bir müəssisə, kiçik sahibkarlıq subyekti yaradılsa, hamının ürəyincə olmazmı? Evimizdə kiçik bir təmirə ehtiyac yarandıqda müraciət edəcəyimiz konkret bir ünvan olsa, peşəkar ustalardan xidmət alsaq, bu, hər birimizin işini asanlaşdırmazmı? Şübhəsiz, bu sahədə də tətbiq olunacaq yenilik ümumi rifahımız, təhlükəsizliyimiz və rahat yaşayışımız üçündür.

**✍ Əli CABBAROV**

# İdman federasiyalarının rayon bölmələri necə fəaliyyət göstərir?

***İdmanın kütləvi hal alması, gənclər arasında hər növün ayrılıqda təbliğ olunması üçün muxtar respublikamızda federasiyalar fəaliyyət göstərir. Belə qurumların iş prinsipi və vəzifələri nədən ibarətdir? İdman federasiyası öz statusuna görə qeyri-hökumət təşkilatıdır. İdman federasiyalarının yaradılması, fəaliyyəti, yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən həyata keçirilir.***

Federasiyalar idman növlərini inkişaf etdirir, öz səlahiyyətləri çərçivəsində milli yığma komandaları formalaşdırır və idmançıların beynəlxalq yarışlarda iştirakını təmin edir. İdman federasiyaları idmanın inkişafına, idman məktəblərinin, olimpiya ehtiyatı məktəblərinin və olimpiya mərkəzlərinin fəaliyyətinə kömək göstərməli, beynəlxalq idman təşkilatlarının üzvü statusuna uyğun şəkildə qanunvericiliyə zidd olmayan hüquqlar əldə etməli və vəzifələr daşıya bilməlidirlər. Ümumilikdə, yalnız bir məqsəd olmalıdır: idman növlərini inkişaf etdirmək və ölkəmizi beynəlxalq səviyyədə layiqincə təmsil edəcək idmançılar yetişdirmək.

Hazırda Naxçıvan Muxtar Respublikasında 12 idman federasiyası fəaliyyət göstərir. Federasiyalar mütəmadi olaraq Gənclər və İdman Nazirliyi ilə birgə yarışlar, turnirlər təşkil etməklə uşaq və yeniyetmələrin, gənclərin idmana cəlbi üçün çalışırlar. Bəs federasiyaların rayonlardakı bölmələri necə fəaliyyət göstərir? Bununla yaxından maraqlanmaq, eləcə də onların məşq proseslərini izləmək üçün ilk olaraq Şahbuz rayonuna yollandıq. Gördüklərimizdən belə qənaətə gəldik ki, bəzi federasiyaların rayon bölmələrinin fəaliyyəti qənaətbəxş deyil. Niyəsinə gəlincə...

Hazırda Şahbuz rayonunda yeniyetmə və gənclərin idmana cəlbi üçün müxtəlif tədbirlər həyata keçirilir. Təbii ki, bu işdə rayon Gənclər və İdman İdarəsinin, həmçinin Uşaq-gənclər idman məktəbinin rolu böyükdür. Federasiyaların bölmələrinin iş prinsipinə gəlincə, rayonda olduğumuz iki gün ərzində ilk olaraq Karate-do Federasiyasının məşq prosesində iştirak etdik. Həftənin tək günləri Uşaq-gənclər idman məktəbinin idman zalında bu idman növünün sirlərini öyrənmək üçün federasiya tərəfindən kifayət qədər təbliğat işləri görülüb. Daha çox kiçikyaşlıların müraciət etdiyi karate-do məşqləri federasiyanın təyin etdiyi məşqçi-müəllim Elxan Sadiqov tərəfindən aparılır. Bu məktəbin idman zalında həmçinin Boks və Güləş federasiyalarının da məşqləri aparılır. Həftənin 6 günü məşqlər keçirilir. Məşqçilər Hüseyn Hüseynli və Sahil Səfərovla söhbətimizdə məlum oldu ki, bu növlərin inkişafı yönündə federasiyalar, həmçinin rayon Gənclər və İdman İdarəsi lazımi işləri görürlər.

Şahbuz rayonunda Yüngül Atletika Federasiyasının bölməsi də fəaliyyət göstərir. Federasiya tərəfindən bu bölməyə məşqçi-müəllim kimi İdris Qəhrəmanov təyin edilib. Məşqlər isə hava şəraitinə uyğun olaraq rayon stadionunun qaçış zolağı və Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin idman zalında aparılır. Ötən ilin sonlarında Gənclər və İdman Nazirliyi ilə Yüngül Atletika Federasiyasının birgə təşkil etdiyi uşaq atletikasının inkişafı üçün seminara uyğun olaraq, hal-hazırda rayonda bu istiqamətdə işlər görülür. Basketbol Federasiyasının bölməsində isə məşqlər Tural İmambəyliyə həvalə olunub.

Şahbuzda bəzi federasiyalar tərəfindən bölmələr yaradılıb, amma məşqlər keçirilmir. Bəs bu federasiyalar hansılardır? Hava və Ekstremal İdman Növləri Federasiyası Şahbuz Dövlət Təbiət Qoruğunda bölmə yaradıb. Təbii ki, bu yerdə onların bölmə yaratması normal haldır. Adından da məlum olduğu kimi, bu federasiya yalnız bu tipli yerlərdə inkişafa nail ola bilər. Lakin federasiyanın bölməsi fəaliyyət göstərmir. Rayon gəncləri ilə söhbətimizdə məlum oldu ki, federasiyanın bölməsi yalnız yarışdan yarışa idmançı toplayır və yarışa aparır. Elə yaradılan Paralimpiya Federasiyasının bölməsində də işi eynidir: bölmə var, məşqçi və məşq yoxdur. Yalnız yarışlar, turnirlər zamanı iş yenə Gənclər və İdman İdarəsinin üzərinə düşür. Qısası, federasiyanın bölməsinin işi bu qurum görür.

Şahbuz rayonunda bəzi federasiya bölmələrinin işi olmasa da, nədənsə, onlar görülən işləri öz adlarına çıxırlar: yarışlar zamanı federasiya tərəfindən rayonun müəyyən qurumlarına məlumat verilir, idmançılar toplanılır və yarışda federasiya adına iştirak edir. Federasiyalar yalnız idmançıların yol xərclərini ödəyirlər. Əmin ola bilərsiniz ki, futbol, voleybol və atıcılıq idman növlərində idmançıların püxtələşməsinin səbəbkarı Gənclər və İdman İdarəsidir.

Şahmat Federasiyasının bölməsi olmasa da, rayon Təhsil Şöbəsinin nəzdində Şahbuz şəhərində şahmat məktəbi fəaliyyət göstərir. Həmçinin bu növün inkişafı üçün rayonun bütün ümumtəhsil məktəblərində şahmat dərsləri tədris olunur.

Şərq Döyüşü Sənəti Federasiyasının sədr müavini Cavanşir Salayev bildirdi ki, bu federasiyanın bölməsi mart ayında fəaliyyətə başlayıb. Artıq məşqçi də təyin edilib.

Göründüyü kimi, bəzi federasiyalar öz işlərini düzgün idman siyasəti çərçivəsində qursalar da, bəzilərində hələ də axsamalar var. Bunun nə zamana kimi davam edəcəyi məlum deyil. Məlum olan bir şey var: Şahbuz rayonunda idmanın inkişafı üçün əsas ağırlıq Gənclər və İdman İdarəsi ilə Uşaq-gənclər idman məktəbinin üzərinə düşüb. Lakin iş bununla yekunlaşmır: federasiyaların da idmançı yetişdirməkdə müəyyən maraqları olmalıdır. Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikası Qanununun 13-cü maddəsində (İdmanın təşviqi və təbliği) qeyd olunduğu kimi "Müvafiq icra hakimiyyəti orqanları, bələdiyyələr, bədən tərbiyəsi və idman yönümlü təşkilatlar əhalinin müxtəlif qruplarının yaş, peşə və sosial xüsusiyyətlərini nəzərə almaqla, bədən tərbiyəsi və idmanın təbliği, forma və metodlarını müəyyən edirlər, kütləvi informasiya vasitələrində bədən tərbiyəsi və idmanın sosial əhəmiyyətinin, əhalinin sağlamlığının möhkəmləndirilməsi və fiziki inkişafında, sağlam həyat tərzinin formalaşdırılmasındakı rolunun açıqlanmasını təmin etməlidirlər".

**✍ Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 216